iki sahil

# Təzədən doğular şair ölən gün





**Azərbaycan Universitetində XX əsr ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi tanınan Adil Qafar oğlu Babayevin həyat və yaradıcılığından bəhs edən "Təzədən doğular şair ölən gün" adlı tədbir keçirildi.**



Tədbirdə filologiya elmləri doktoru, professor Asif Hacıyev çıxış edərək bildirdi ki, Adil Babayevin yaradıcılığı çoxşaxəlidir. Onun pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, Naxçıvan Musiqili Dram Teatrında, Azərbaycan Dövlət Akademik Musiqili Teatrında, Sumqayıt Dövlət Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Adil Babayev peşəkar tərcüməçi kimi də məhsuldar fəaliyyət göstərib. Azərbaycan oxucusu Robindranat Taqorun, Nekrasovun, Lermontovun, Puşkinin, Qarsia Lorkanın, Pablo Nerudanın, Vladimir Sokolovun, Yan Raynisin, Taras Şevçenkonun, David Kukuldinovun və başqa görkəmli qələm ustalarının poeziya nümunələri ilə onun tərcüməsində öz ana dilində tanış olmuşdur.

A.Hacıyev qeyd etdi ki, Adil Babayevin 200-dən çox şeirinə mahnılar bəstələnib. Adil Babayein yaradıcılığı barədə Səməd Vurğun, Mirzə İbrahimov, Mehdi Hüseyn, Osman Sarıvəlli, Abbaz Zamanov, Bəxtiyar Vahabzadə, Xəlil Rza və başqa görkəmli ziyalılarımız, nüfuzlu tənqidçilər müxtəlif vaxtlarda dövri mətbuatda, elmi əsərlərdə münasibət bildirmişlər. Onun poeziyası və teatr yaradıcılığı mövzusunda üç namizədlik dissertasiyası yazılmış və monoqrafiya şəklində nəşr olunmuşdur.

Şair-tərcüməçi Vahid Əziz bildirdi ki, Sovet İttifaqının ən ziddiyyətli illərində Naxçıvanda dünyaya göz açan Adil Babayev 52 illik ömrünün 35 ilini ədəbiyyata həsr edib. Maraqlıdır ki, Adil müəllimin fitri istedadını, şairlik məharətini ilk görən və çox yüksək qiymətləndirən milli poeziyamızın iftixarı Səməd Vurğun olub. Haqsızlıq qılıncı dəfələrlə şairin qəlbini qanatsa da, ümidini heç vaxt qıra bilməyib. İradəsi möhkəm adamlar içindəki nikbinlik çırağını ləyaqətlə qoruyub, ömrünün sonunadək sönməyə qoymurlar. Adil Babayevin qəmli-kədərli misralarında da sızıltı yoxdur, ümid var.

Tədbirin sonunda Adil Babayevin oğlu Etibar Babayev çıxış edərək bildirdi ki, çoxları kimi, mən də oğlumun adını Adil qoymuşam. Amma bu sevinc atama nəsib olmamışdı, mənə atasının adını qoya bilməmişdi. Çünki atasını repressiya illərində "xalq düşməni" kimi güllələmişdilər. Mən anadan olanda atam hələ də "xalq düşməni"nin oğlu hesab edilirdi. Babam güllələnəndə atam altı aylıq körpə idi, üzünü görməmiş, ata nəvazişini duymamışdı. Buna baxmayaraq, ömrü boyu atasının adından imtina etməmişdi. Bu da onun bir oğul kimi, insan kimi necə şərəfli xarakterə sahib olmasının göstəricisi idi. Mənə ünvanlanan ilk şeirindən bəzi misraları yada salmaq istərdim:

*Oğlum, görməmişəm hələ üzünü,*
*Bilmirəm qarasan, yoxsa ki, ağsan,*
*Ancaq qəlbimdəki saf duyğuları,*
*Bilirəm, yenidən canladacaqsan.*

Sonda E. Babayev tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirdi.

Tədbir Adil Babayev ömrünə həsr edilmiş "Ata olsam da ata istərəm" sənədli filminin nümayişi ilə başa çatdı.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***